# SƏMAVİ HƏDİYYƏLƏR

4-cü kitab



بسم الله الرحمن الرحیم

Bismillahir Rəhmənir Rəhim

# Səmavi hədiyyələr

## İslam təlim-tərbiyəsi

### Dördüncü kitab





مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

**(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)**

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**



**Bismillahir Rəhmanir Rəhim**

**Bağışlayan və mehriban Allahın adı ilə. O, insana Quranı öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

Rəbbimiz bizə İslam təlim-tərbiyəsi sahəsində uşaqlara, yeniyetmələrə və xidmət etmək şərəfini nəsib etdi.

MSEN (MUSLİM SCHOOLS EDUCATİON NETWORK) böyük alimlərin rəhbərliyi altında insanlara dini-əxlaqi dəyərləri təqdim edən bir qurumdur. Qurumun əsas fəaliyyəti gələcəyin qurucuları olan bu günkü nəslin əxlaqi və mənəvi baxımından yetişdirilməsində müəllim, valideyn və şagirdlərlə həmkarlıq etməkdən ibarətdir. Aşağıda bir sıra məqsədlərimizi təqdim edirik:

* İslam təlim-tərbiyəsinin tədrisi üçün aydın və gözəl bir hədəf bəyan etmək;
* Mənbələr, ixtisaslar və təcrübələrin mübadiləsi üçün geniş bir ədəbiyyat təqdim etmək;
* Əxlaqi və mənəvi bir dəyişikliyin formalaşmasında əhatəli bir ortamın yüksəldilməsi;
* İslam təlim-tərbiyəsinin kursu, məzmunu, metodları və dəyərləndirilməsi üçün çalışmaq.

Bu qurumun əsas məqsədi mənəvi dəyərlərin öyrənilməsində yüksək dizaynla hazırlanmış kamil bir məcmuəni təqdim etməkdir. Allahın mərhəməti və yüksək səviyyəli kadrların həmkarlığı ilə bu məqsədə doğru önəmli bir addım atılmışdır.

Bu qəbildən olan kitablar əsasən mötəbər İslami mənbələrə əsaslanmaqla yanaşı maraqlı və cəlbedici metodlardan istifadə edərək etiqad prinsipləri, əxlaq və dini hökmləri ehtiva edir. Bu məcmuə əsasən İslamın əsas meyarlarına – ağıl, mənəviyyat, mötədillik və sülhə əsaslanaraq tərtib edilmişdir.

Yeri gəlmişkən, bu böyük işdə bizimlə əməkdaşlıq etmiş bütün həmkarlara, xüsusilə də professor Ərafi, doktor Məhəmməd Məhəmmədian, doktor İbrahimi və cənab Fəyyaziyə təşəkkür etməyi özümüzə borc bilirik.

Habelə MSEN-dəki həmkarlarımızın akademik dəstəyinə, xüsusilə doktor Əzhər Həsənrza, Bilal Rizəvi, Nəzirə Musa, Səfinə Səadət, Nazənin Davdani, Şahin Heydər, Sima Cəmaləddin, Laden Razeqi və Şəhrbanu Cəfəriyə bu məcmuənin öz məqsədinə çatmasında misilsiz zəhmətlərinə görə təşəkkür edirik.

**İsa Cahangir**

**MSEN**

# Mündəricat


1 Uşaqlıq çağlarının xatirələri 2
2 Ac dovşan 6
3 Su üzərində uşaq 8
4 Mənim ümidim 12
5 Həmişə birgə 16
6 Müsəlmanların məscidləri 18
7 Unudulmaz səyahət 22
8 Günlərin bir günü... 26
9 Pis sözün yerinə 28
10 Əvəzinə 32
11 ................. 36
12 İnşa 42




13 Cəsarətli uşaq 46
14 Əzəmətli sübh 48
15 Ah bu dostluq! 52
16 Dostun xatirinə 54
17 Mənim xəyallarım 58
18 Ananın əlləri 62
19 Fədakar həyat yoldaşı 66
20 Məni görən var! 70
21 Yadigar şəkil 72
22 Mənim böyük arzum 77

Salam verirlər
(dostlarımı nəzərdə tuturam).
Onların hamısının parlaq gözləri var,
Bu gözlər hər səhər təbəssümlə açılır.
Onların pak qəlbləri var və mehriban əlləri...
və ...

Yağış mənim dostumdur!
O yağanda hər yan təravətli və ətirli olur.
**Mən onu sevirəm!**

Külək mənim dostumdur!
Mən onu da sevirəm;
Səsi qulağıma gələndə mənimlə pıçıltı ilə
danışır.
Sübh açılanda ağ quşlar onunla ağız-ağıza
verib mahnı oxuyur.

Səma da mənim dostumdur!
Mən onu sevirəm,
O da məni sevir.
Mənim üçün bolluca hədiyyələr göndərir -
Səmavi hədiyyələr!
Həmişə onların üzərinə yazır:
"Salam olsun sənə!"







1

# Uşaqlıq çağlarının xatirələri

Necə də gözəl cümədir!

Babam və nənəm bu gün bizdə qonaqdır,

Məryəm xala da gəlib.

•

Nahardan sonra böyüklər keçmiş xatirələrdən danışır.

Anam xatirə albomunu gətirib; o, köhnə şəkillərlə doludur.

Xalam təəccüblə babamın və nənəmin şəkillərinə baxıb deyir:

"Aman Allah!.. Anama, atama baxın... Necə də cavandırlar!"



Mən deyirəm: “Bəs bu iki balaca qız..?”
Nənəm deyir: “Bu xalandır, bu da sənin anan”.
Xəyala dalıram və öz-özümə deyirəm: “Mən o vaxtlar lap balaca idim. Onda...”
Babamın səsi məni xəyallardan ayırır, diksinirəm:
“Bir baxın!.. Gözlərini necə də şəkillərə zilləyib!.. Elə bil onların arasında özünü axtarır!”
Hamı gülür.



Mən də gedib uşaqlıq çağlarımın şəkil albomunu gətirirəm.
Xalam fərəhlə şəkillərə tamaşa edir.
Deyirəm: “Baxın, bu mənəm!”
Xalam deyir: “Aman Allah!.. Necə də balaca idi! Gör necə də şirin gülüşü var!”
Anam mənim şəklimi nənəmə göstərib deyir: “Ana, yadındadır, Zəhra güləndə üzü, gözləri necə gözəl görünürdü?!”
Nənəm deyir: “Necə də şirin gülüşü var idi!”
Babam məni öpüb deyir: “Qızımın gülüşü elə indi də gözəldir!”
Hamı yenə gözlərini şəklə dikir.
Bir az sonra atam mənə baxıb deyir: “O vaxtlar sənin gülüşlərin bizə

fərəh bəxş edirdi!..”

Anam deyir: “Amma ağlamağın da ayrı aləm idi, öz mənası vardı... Ağladığında səni qucağımıza alardıq, o saat sakitləşərdin və yenidən gülümsəməyə başlayardın. Həmçinin acanda, susayanda, yorulanda və ya nədənsə qorxduğunda da ağlayardın”.

Bu sözləri eşitməkdən necə də ləzzət alıram!

●

Bu gün həyatımın ən gözəl günlərindən biridir!

Mən özüm barədə bir çox şeyləri öyrəndim.



## İstəyirsən, sənə deyim?

● Doğrudan da, o vaxtlar ağlaya və ya gülə bilməsəydim, nələr baş verərdi?..

● Əgər valideynlərimizin ehtiyaclarımızdam xəbəri olmasaydı, necə olardı?

## Mən bacararam

- Mən böyüklərimdən uşaqlıq çağlarımla bağlı xatirələrini mənə danışmalarını xahiş edə bilərəm.
- Mən Allahın ehtiyaclarımdan xəbərdar olmasına işarə edən çoxlu misallar qeyd edə bilərəm.



## 2
# Ac dovşan

Soyuqlar yavaş-yavaş düşmək üzrədir. Yaşıllıqlar saralmağa doğru gedir. Ağacların yarpağı tökülür. Tezliklə heyvanlar üçün yeyəcək tapmaq çətinləşəcək.
Ana qida axtarmaq üçün uzaqlara üz tutub.

●

Günəş yavaş-yavaş batmağa doğru gedir. O öz yerini nurlu aya verməyə hazırlaşır. Hər yer sükuta qərq olub. Balalar uzaqlara baxır.

- Anamız necə gec qaldı!
- O dedi ki, elə bu yolla da qayıdacaq, bizə yemək gətirəcək.

Onlar gözləyirlər...

.●

Ay yavaş-yavaş yuxarıya qalxır. Sanki o da körpələrdən nigarandır. Dovşan balalarından biri aya işarə edib deyir: “Baxın, ay da gəldi, amma anamızdan bir xəbər yoxdur”.
Balaca dovşanlar narahatdır.

●

Kimsə ağacların arxasından onların bu söhbətini eşidir. Bu onların yaxınlarında yaşayan ahudur; o elə indicə uzaq yoldan gəlib, öz balalarına təzə ot gətirməyə getmişdir.



Ahu öz-özünə deyir: “Vay... ovçunun tələsinə düşən dovşan bu balaların anası idi, yəqin!”

●

Balaca dovşan balaları aya baxa-baxa ucadan deyir: “Ana, ana... biz acıq, tez gəl!”
Ahu yavaşca gətirdiyi otları dovşanların yuvasının ağzına qoyur və öz evinə sarı yollanır.

●

Külək bütün bu səhnəni kənardan izləyir. O bilir ki, ana ahu bu otları çox əziyyətlə toplamışdır. Elə ona görə də ahunu sevindirmək istəyir. Balaca dovşanların səsini onun qulağına çatdırır:

“Bəh bəh!.. Anamızın bizə göndərdiyi yemək necə də dadlıdır! Bizim anamız çox mehribandır, o həmişə bizi düşünür!”
Ahu sevinir və sürətlə öz evinə tərəf qaçır.
Qərara gəlir ki, yenə də balaca dovşanları sevindirsin.



●

Bütün bu olanları kimsə görür!
Gördüklərindən razıdır.
O hamıdan çox balaca dovşan balalarını düşünür.

## İstəyirsən, sənə deyim?

- O kimdir ki, hamıdan çox dovşan balalarının və meşənin digər heyvanlarının qayğısına qalır, onları düşünür?
- ...O, dovşan balalarına necə kömək edəcək?

## Mən bacararam

- Mən nağılı davam etdirə bilərəm, ta o yerə qədər ki,..

# 3
# Su üzərində uşaq

Ana sonuncu dəfə uşağına süd verdi. Gözlərini ona zilləmişdi, balasını bağrına basıb çoxlu-çoxlu öpdü. Bu günahsız körpə indi təhlükəli bir səyahətə çıxacaqdı. Vidalaşmaq ana üçün necə də kədərli idi...

•

Çay sakitcə öz axarı ilə axırdı. Bu zaman ana körpəni sonuncu dəfə qucağına aldı, gözündən süzülüb axan yaşı sildi. Qəmli, lakin Allaha olan sonsuz ümidilə körpəni sandığın içinə yerləşdirdi. Sonra onu astaca suyun üzərinə qoydu. Sandıq yavaş-yavaş uzaqlaşmağa başladı. Ana sandıq gözdən itənə qədər ondan nəzərini ayırmadı.

•

Taxta sandıq ləpələrin üstü ilə fironun sarayının yanından keçirdi. Firon öz xanımı və xidmətçilərilə birgə çayın kənarına gəlmişdir. Sandığı görcək xidmətçilərinə əmr verdi ki, onu tutub gətirsinlər. Hamı maraqla sandığa baxırdı, bu sirli sandığın içində nə olduğunu bilməyə can atırdılar.
Nəhayət, onu sudan çıxardılar. Hamı gözünü ona dikmişdir. Sandığın içində isə gözəl bir körpə yatırdı...



Firon eşitmişdir ki, Bəni-İsraildən olan bir nəfər gələcəkdə onun hakimiyyətini məhv edəcək. O öz-özünə dedi: “Bəlkə bu uşaq elə mənimlə müharibə aparacaq həmin şəxs olacaq?!.”

Beləcə, onu da Bəni-İsrailin başqa körpə oğlan uşaqları kimi məhv etmək fikrinə düşdü.



Bağırıb dedi: "Xidmətçilər! Onu məhv edin və mənə bu barədə xəbər verin!.."

Gözlənilmədən uca bir səs fironu durdurdu:

-Xeyr! Heç vaxt belə bir iş görməyinizə imkan verməərəm!

Bu, fironun xanımı Asiyanin[1] nidası idi. Allaha inanan bu qadın körpəyə möhkəm bağlanmışdır.

O, uşağı qucağına aldı və sinəsinə sıxıb dedi: "Mən bu uşağı öz övladım kimi böyüdəcəm. Ondan qorxmağa heç bir əsas yoxdur!"

●

Körpə ağlayırdı.

Ac idi.

Kim ona süd verə bilərdi?

Saray xadimləri təlaş içində körpəyə dayə[2] axtarmağa başladılar.

Çox sayda qadınlar gəldi və bu körpəyə süd verməyə çəhd etdi, amma yenə də faydası olmadı. Belə ki, körpə onların südünü yemədi.

●

Musanın bacısı bütün bu əhvalatı izləyirdi. O, Musanın sandığa qoyulub suya atıldığı andan sahil boyu qaçaraq onu təqib edirdi. Budur, artıq fironun sarayına yaxınlaşıb. Üzünü gizlədərək daha yaxına gəlir və qapıda dayananlara deyir: "Mən Bəni-İsraildən mehriban bir qadın tanıyıram, o sizin körpəyə süd verə bilər".

Saray gözətçiləri sevincək halda bu xəbəri fironun xanımı Asiyaya çatdırdılar.

Asiya çox sevindi, gözətçilərə hədiyyə verib yola saldı.

---

1. Xanım Asiya fironun Allaha iman gətirmiş zövcəzi idi. O, həzrət Musanı (ə) körpəlikdə qorumuşdu.
2. Dayə - anasından başqa körpə uşağa baxan və ona süd verənə deyilir.

●

Beləliklə, Musanın anası fironun sarayına daxil oldu.

Anasının qoxusunu duyan körpə onun qucağında sakitləşdi. Musanın anası da bütün bu olanlara görə mehriban Allaha şükür etdi.

## İstəyirsən, sənə deyim?

● Sözügedən körpə yol boyu üzləşə biləcək təhlükələrdən necə amanda qaldı?

● Nəyə görə Musanın anası onu sandığa qoyub suya atanda nigaran, eyni zamanda isə naümid deyildi?

## Oxu üçün

Həzrət Musa (ə) peyğəmbərliyə çatandan sonra fironun xanımı Asiya ona iman gətirdi. Firon ona hədə-qorxu gəlib hədələdi və ondan tələb etdi ki, Musaya (ə) iman gətirməkdən əl çəksin. Amma buna nail ola bilmədi. Sonda əmr etdi ki, onu ağır işgəncələrlə qətlə yetirsinlər.

Möhtərəm xanım Asiya son nəfəsinə qədər müqavimət göstərdi və qəhrəmancasına dünyadan köçdü. Bununla da bütün insanlara göstərdi ki, imansız zalımlarla mübarizədən qorxmasınlar.

Xanım Asiya dünyanın ən üstün qadınlarından biri idi.

# 4

# Mənim ümidim

Səmaya baxıram...Gecənin qaranlığı aləmi bürüyəndə və sayrışan parlaq ulduzlar belə görünməz olanda... Sənə şükür edirəm.

Sən
məni göz oxşayan yaşıl təbiətin qoynuna,

Lal axan suların kənarına,
Başı göylərə ucalmış dağların,

Sayrışan ulduzların,



Nurlu ayın tamaşasına səsləyirsən,
Mənə ümid bəxş edirsən!
Sən
həmişə mənimləsən,
Məni ümidsizlikdən,
Qorxudan,
Pisliklərdən
Qoruyursan.
Mən yalnız Sənə ümidvaram!
Çünki



Sən,
ey mehriban olan Allah,
Mənim arxam və dayağımsan,
İstək və arzularımı bilənsən,
Hər kəsin qəlbindəkilərdən xəbərdarsan!
Sən
Mənə eşitməyim üçün eşitmək qüdrəti bəxş etdin.
Mənə düz yolu daş-kəsəkli, enişli-yoxuşlu yoldan ayırmaq üçün görmək qüdrəti bəxş etdin.
Yaraşıqlı, üzvləri bir-birinə uyğun və mütənasib olan bir vücud bəxş etdin.
Bütün bu əsrarəngiz gözəlliklər məni daima
Düşünməyə,
Ehtirama və
Sənə pərəstişə səsləyir,
ey böyük olan Allahım!

## Mən bacararam

- **Mən öz mehriban Allahımla söhbətləşə və Ona belə deyə bilərəm:**

رَبَّنا عَلَيكَ تَوَكَّلنا

“Biz yalnız Sənə təvəkkül edirik!”

(Qurani-kərim, Mumtəhinə surəsi, 4-cü ayə).

# 5
# Həmişə birgə

Həmişə mən gələndə gülümsəyirsiz.
Siz gələndə mən sevincə qərq oluram.
Biz birgə olanda əhvalımız əla olur və hər bir işin öhdəsindən gəlməyi bacarırıq.
Həyat sizinlə birgə gözəldir!
Yaşamaq sizinlə birgə sevinc gətirir!
Allah-taala da bizi bir yerdə, birgə görməyi sevir.



Bu gün də biz bir yerdəyik.
Camaat namazında bütün dostlarla bir yerdəyik.
Cümə gününün namazından və dualarından ləzzət alırıq!

## İstəyirsən, sənə deyim?

- Camaat namazının hansı yaxşı cəhətləri var?
- Camaat namazı necə qılınır? Bu namazın tək qılınan namazdan fərqi nədir?

## Mən bacararam

- Mən camaat namazı barədə öyrəndiklərimi əyani şəkildə dostlarıma göstərə bilərəm.

## Oxu üçün

Camaat namazı İslam dininin mühüm ibadətlərindən biridir. Müsəlmanlar camaat namazı qılanda çiyin-çiyinə duraraq nizamlı şəkildə cərgələrə düzülürlər. Bununla da öz qardaşlıqlarını və ayrılmaz olduqlarını nümayiş etdirirlər.
Camaat namazı məscidlərdə, ziyarətgahlarda, mədrəsələrdə, hətta evlərdə də təşkil oluna bilər.
Camaat namazında möminlər "İmam camaat" adlanan ən layiqli bir şəxsə iqtida edir və namazın əməllərini onun ardınca fasiləsiz olaraq yerinə yetirirlər.
Həzrət Muhəmməd (s) müsəlmanlara göstəriş verib ki, namaz qılmaq üçün məscidə toplansınlar və namazlarını camaatla birgə yerinə yetirsinlər. Belə ki, camaat namazının savabı tək halda qılınan namazdan daha çoxdur!
Sevimli Peyğəmbərimiz (s) buyurur: "Camaat namazında müsəlmanların cərgələri mələklərin səmadakı cərgələri kimidir... Allah bir möminin camaatla qıldığı namazını illərlə tək qıldığı namazından daha artıq sevir!"

# Müsəlmanların məscidləri

Yusif sevinclə Həsəndən gələn məktubu açır.
Həsən İranın Təbriz şəhərində yaşayır, Yusif isə Azərbaycanın paytaxtı Bakıda.
Onlar məktublaşmağı sevirlər.
Bununla da bir-birini iki ölkənin tarixi və mədəniyyəti ilə tanış edirlər.
Yusif yazdığı ilk məktubda yaşadığı yer barədə bir çox məlumatları qeyd etmişdir.
İndi isə Həsən özünün cavab məktubunda salamlaşandan və hal-əhval tutandan sonra belə yazır:

***

"Sən öz ölkənin məscidləri barədə maraqlı məlumatlar yazmısan. Belə məscidlər tək sizin ölkənizdə deyil. Dünyanın hər yerində - kiçik kəndlərdən tutmuş böyük şəhərlərə qədər, dağ döşlərindən tutmuş dəryaların sahillərinə qədər, - harada müsəlmanlar yaşayırsa, orada da məscidlər var.
Sadəcə məscidlərin quruluşu fərqlidir. Onlardan bəziləri böyük və əzəmətli, bəziləri isə kiçik və sadədirlər. Lap təzəlikcə müsəlmanların məscidləri barədə bir kitab oxudum. Oradan öyrəndim ki, ilk məscidi sevimli Peyğəmbərimiz həzrət Muhəmməd (s) və onun dostları Mədinə şəhərinin kənarında inşa ediblər. Bu məscidin adı "Quba"dır. Hazırda da həmin məscid durur və müsəlmanlar orada ibadət edirlər.
Daha sonra həmin kitabdan oxudum ki, Peyğəmbər (s) və onun dostları köməkləşərək Mədinə şəhərində digər bir məscid də inşa ediblər. Hazırda bu məscid "Məscidul-nəbəvi", yəni "Peyğəmbər məscidi" adı ilə məşhurdur.
Həzrət Muhəmmədin (s) də müqəddəs qəbri həmin məsciddədir.
Həmçinin həmin kitabda yazılıb ki,..
İslam dininin ən böyük və ən əhəmiyyətli məscidi Məscidul-həram, yəni Kəbə evidir.
Müsəlmanların ibadətlərində üz tutduğu qiblə də məhz bu məsciddir.
Bundan başqa digər mühüm məscidlərin adı da həmin kitabda qeyd olunub, o cümlədən "Kufə" və "Əl-Əqsa" məscidləri barədə də məlumat verilib.

***

Məktubda yazmısan ki, sizin məktəbdə namaz otağı var. Bu çox yaxşıdır, həm də maraqlı.
Mən və buradakı dostlarım böyüklərin köməkliyi ilə balaca bir məscid inşa etdik. Orada biz həm dini biliklərimizi artırırıq, həm də böyüklərlə birgə ibadət edirik. Həmin məsciddə məhəllə camaatımızın bir çox müşkülləri də öz həllini tapır. Bizim bu balaca məscid..."

***

Yusif dostunun məktubunun cavabında yazır: "Əziz dostum Həsən, salam!
Bakı çox gözəl şəhərdir. Tezliklə səni burada görməyi arzulayıram... Məhəllənizdə belə bir məscidin olması çox xoşuma gəldi!.."

## İstəyirsən, sənə deyim?

- Yusif öz məktubunda Həsənə nələri yazmışdı?
- Biz öz şəhərimizdə və ya kəndimizdə olan məscid barədə necə məlumat toplaya bilərik?

## Mən bacararam

- Mən bizim ərazimizdə olan məscid və onun fəaliyyəti barədə ətraflı danışa bilərəm.

## Sinif işi

- Müəllim "Əl-Əqsa" məscidini daha yaxından tanıtdırmaq üçün uşaqlarla birgə rəsm çəkmə və əl işləri hazırlama proqramını həyata keçirsin.





**Oxu üçün**

## O qədim məscid...

Gül-çiçəkli yaşıl bağlı, mavi səma altında
Mənim kiçik, günəşli bir şəhərim var yaxında!
Dolaşıram yenə də mən təmiz küçələrində
Babam ilə  əl-ələ, heyran olur görən də!
Bu yaşıllıq, bu  ağaclar, o küçə, o xiyaban,
Gül ətirli bağ-bağçalar, hovuzlar, geniş meydan.
Səma rəngdə künbəzli görünən o göy məscid
Nəsillərdən  bir mirasdır, bəzəyidir mərkəzin.
Bu mənim şəhərimdir, al-əlvan və işıqlı,
Məktəblər aşıb–daşır, uşaqlar yaraşıqlı.

Surudey Vaqidi







# 7
# Unudulmaz səyahət

Birinci dəfədir ki, atamla belə həyacanlı bir səyahətə çıxıram. Saatlardır burada nadir və gözəl bir təbiət hadisəsini gözləyirik!

***

Üzərində dayandığımız təpənin zirvəsi kifayət qədər genişdir. Amma yenə də hər kəs səmanı müşahidə etmək üçün özünə daha münasib bir yer tutmağa çalışır.
Oraya toplaşan bütün müxbirlər, o cümlədən atam çəkiliş üçün kameraları və müşahidə borularını səmanın təyin olunmuş nöqtəsinə yönəldərək onları tənzimləyirlər. Səhərdən indiyə kimi dəfələrlə öz kameralarını yoxlayıblar.
Mən həvəslə ətrafımda baş verənləri izləyirəm: gah böyük şövqlə və ciddiyyətlə çalışan atama, gah müşahidə borularına, gah səmaya, gah da günəşə gözümü zilləyirəm.

***

Yavaş-yavaş gözlənilən an gəlib çatır.
Günəş öz parlaqlığını itirərək odda qızarmış bir disk kimi qırmızı rəng alır...



Tədricən qaranlığa qərq olur. Sanki qara bir bulud onun önünü kəsir!
Hamı nəfəsini çəkərək diqqətlə izləyir!
Bu mənzərənin gözəlliyi bütün baxanların nəzərini özünə cəzb edib.

Yüzlərlə foto çəkilir, çəkiliş kameraları bu səhnəni qeydə alır.
...Gözlənilmədən atam və bir neçə nəfər müşahidə borularını və çəkiliş kameralarını başlı-başına buraxıb gedir.
Bilmirəm nə mühüm hadisə baş verə bilərdi ki, onlar belə gözəl



va əsrarəngiz bir mənzərədən gözlərini çəkməli olublar!

Mən də onlarla birgə gedirəm.

Aha! Qəribədir!.. Onlar namaz qılmağa hazırlaşırlar.

Namaz?.. Günün bu vaxtı, həm də belə bir şəraitdə?!



## İstəyirsən, sənə deyim?

- Ayət namazı necə qılınır?
- Hansı zamanda Ayət namazı qılmaq müsəlmanlara vacib[1] olur?

## Oxu üçün

Həzrət Muhəmmədin (s) İbrahim adında bir övladı vardı. İbrahim hələ körpə ikən dünyasını dəyişir. Peyğəmbər (s) övladının vəfatına görə çox qəmlənir, amma öz səbrini əldən vermir. Həmin gün günəş tutulması baş verir. Bəzi insanlar güman edir ki, günəş belə, Allah Rəsulunun (s) qəminə şərik olub.

Belə olduqda, daim camaatı azğınlıqdan qorumağa çalışan Peyğəmbər (s) buyurur: "Günəş tutulmasının bu məsələ ilə heç bir əlaqəsi yoxdur! Bu hadisə Allahın qüdrətinin nişanəsi olan bir təbiət hadisəsidir".

Daha sonra onlara günəş və ay tutulmasında, zəlzələ və bu kimi hadisələrdə Ayət namazının qılınma qaydasını və Allahın böyüklüyünü, əzəmətini xatırlamalarını öyrədir. Allah Rəsulu (s) insanlara öyrədir ki, Ayət namazı sübh namazı kimi iki rükətdir, amma bəzi özünəməxsus xüsusiyyətləri var. Belə ki, Ayət namazında sübh namazından fərqli olaraq, hər rükətdə beş dəfə ruku edilir və ...

1. Vacib: zəruri. İslam dininə görə hər bir müsəlmanın icra etməsinin lazım olduğu əməllərə "Vacib əməllər" deyilir. Bu əməlləri yerinə yetirmədikdə onlar günah etmiş olurlar. Yerinə yetirilməsi qadağan olunan əməllər isə günah olmaqla yanaşı "Haram" adlandırılır.



# 8
# Günlərin bir günü...

Vahid danışır:

- Bazar günü idi.

Bayırda idim, oynamaq istəyirdim, amma dostum Rza hələ gəlib çıxmamışdır. Öz-özümə dedim ki, Rza gələnə qədər blokumuzun dəmir qapısı mənim futbol qapım olsun.

Taap!.. Birinci zərbəm möhkəmcə qapıya dəyir:

- Əladır! ...Düz qapıya!.. Axx!..

Bir də möhkəm zərbə vururam.

Bu dəfə də düz qapının mərkəzinə vururam:

- Can, ay can!

Bir neçə dəfə də topu möhkəm qapıya vurdum.

Taap... tarap... daramp...

Ləzzət eedir! Mən bu oyunu saatlarla yorulmadan oynayaram.

Amma... Birdən yerimdə donub qaldım!

Qonşu kişi eyvanda durmuşdur! Narahat və həyəcanlıydı!

Yuxarıdan boylanıb kimisə axtarırdı.

- Vay... Aman Allah! İndi mən nə edim?!

Məlum oldu ki, həddimi aşmışam və heç yaxşı iş görməmişəm.

Heç düşünməmişdim ki, belə gözəl oyunla kiminsə narahatlığına səbəb olam.





Öz-özümə dedim: - Yaxşı olar bir tərəfdə gizlənim. - Qorxurdum ki, məni danlayalar, ya da valideynlərimə məndən şikayət edələr.

Amma artıq gec idi, məni görmüşdülər!



Ürəyim möhkəm döyünməyə başladı, başımı aşağı saldım.

Hər yerdən özümə kömək umurdum, amma... qəribə bir iş oldu! O heç nə demədi.

Yalnız təbəssüm edərək başını buladı.

Çox xəcalət çəkdim.



***

Qonşu kişi danışır:
-Bazar günü idi, nahardan sonra hər yer sükuta qərq olmuşdur.
Bir həftə işlədikdən sonra fürsət tapmışdım ki, istirahət edim.
Eyvanda uzanmışdım. Hava da qəşəng idi.
Təzəcə yuxulamağa başlayırdım ki, qulağıma dəhşətli səs gəldi.
Qonşunun dəmir qapısının səsi idi.
Həqiqətən çox səksəndim!
Bir az keçmiş bir də... Taap... tarap...
Çox narahat oldum. Qalxıb küçəyə baxdım. Qonşunun balaca oğlundan başqa orada heç kim yox idi.
Ona baxdım.
O da xəcalətlə başını aşağı salıb mənə baxdı.
Uşağın elə mehriban üzü var idi!
Məlum oldu ki,..

## İstəyirsən, sənə deyim?

- Nəyə görə qonşu kişi Vahidlə belə rəftar etdi?
- Qonşunun bu cür rəftarı Vahidə necə təsir etdi?
- Bilmək istəyirsənmi, Vahidin yerində olsaydım nə edərdim?
- Bu əhvalatın davamı necə olmalıdı?



## Mən bacararam

- Mən bu dərsin hekayəsinə bənzər əhvalatlar və ya xatirələr danışa bilərəm;
qonşuların əziyyət çəkməsinə bais olan, həmçinin onları sevindirən işlər barədə, yaxud da ... barədə.
- Dostlarımla mən başqalarına əziyyət verməmək üçün oyunlarımıza çox diqqət edirik. Məsələn, biz...

# 9
# Pis sözün əvəzinə!

Gözü İmama (ə) sataşan kimi ona və atasına ədəbsiz sözlər dedi... Amma bu pis sözlərin qarşılığında ancaq təbəssüm gördü.

●

Bir gün həmişəki kimi ağzını pis sözlərlə açmağa başladı.
İmamın (ə) dostları narahat olub dedilər:
- Bu kişi öz əxlaqsız danışığının əvəzini almalıdır!
- O, gərək məzəmmət olunsun!
- Bəli, onun İmamımızla belə danışmağa haqqı yoxdur!
Amma İmam (ə) gülümsəyərək belə buyurdu:
- Əziz dostlar, səbirli olun... O öz səhvlərini başa düşəcək!

●

Beləliklə, günlər keçirdi, həmin kişi isə öz ədəbsiz rəftarına davam edirdi. İmamın (ə) dostları da hər dəfə əsəbiləşib narahat olurdular. Buna baxmayaraq, İmam onu tənbeh etməyə icazə vermirdi.

●

Bir gün İmam (ə) dostlarının birindən soruşdu: "Xeyli vaxtdır o kişini görmürəm. Bilmirsiz, harada yaşayır?"
Dostlardan biri dedi: "Mədinədən bir az kənarda əkin sahəsi var, həmişə orada əkinçiliklə məşğul olur".
İmam (ə) həmin yerə yollandı.
Dostları bu hərəkətindən təəccübləndilər.

●



Elə ki İmamı (ə) gördü, əlindəki beli torpağa sancdı, əllərini belinə qoyub dayandı və üzünü turşutdu.

İmamın (ə) ucadan onu çağırmasından hürküb əkin sahəsindən çıxmaq istədi. Ancaq İmam təbəssümlə ona sarı getdi.

Kişi həmişəki kimi ağzını ədəbsiz sözlərlə açmaq istəyirdi ki, İmam (ə) gülərüzlə ona salam verdi. Sonra yaxına gəlib hal-əhvalını tutdu.

Kişi bəhanə tapmadığına görə dedi: "Əkin sahəmə daxil olub məhsulumu zay etdin!"

İmam ona qiymətli bir hədiyyə verdi və təbəssümlə söhbətini davam etdirdi...

Beləliklə, İmam (ə) yavaş-yavaş öz məhəbbətini həmin kişinin qəlbinə saldı. Bədəxlaq adam bütün ədəbsizliyinə baxmayaraq, belə yaxşı rəftarı görüncə çox xəcalət çəkdi. Titrək səslə dedi: "Mən sizinlə çox pis rəftar etdim, amma bütün bunların əvəzində siz mənə mehribanlıq göstərdiniz. Siz əzəmətli insansız, xahiş edirəm, məni bağışlayın!"

O gündən sonra həmin kişi İmam (ə) və dostları ilə ehtiramla rəftar etdi.



## İstəyirsən, sənə deyim?

- İmamın (ə) o kişi ilə rəftarından hansı dərsi aldıq?
- Bəs kimsə səninlə elə rəftar etsə, necə qarşılıq verərsən?

## Mən bacararam

● Mən Quranın aşağıdakı ayəsinin mənasını əsas tutaraq dostlarımla yeddinci İmam həzrət Kazim (ə) barədə söhbət edə bilərəm.

.... والكاظِمينَ الغَيظِ وَالْعافينَ عَنِ النّاسِ وَ اللّهُ يُحِبُّ الْمُحسنينَ

"...qəzəblərini udan və camaatın xətalarından keçənlərdirlər. Allah yaxşılıq edənləri sevir".

(Ali İmran surəsi, 134-cü ayə)

## Oxu üçün

Həzrət İmam Musa Kazim (ə) Mədinə yaxınlığında dünyaya gəlib. Onun atası həzrət İmam Sadiq (ə), anası isə möhtərəm Həmidə xanım idi.

Hər kim İmam Kazimlə (ə) ədəbsiz davranardısa, həzrət qəzəbini basıb onunla mehribanlıqla rəftar edərdi.

İmam Kazim (ə) xoş xasiyyətli və mehriban bir insan idi. Amma zalımlara qarşı barışmaz mövqeyinə görə illərlə Abbasilərin[1] qorxulu zindanlarında həbs edilərək yaşayıb. Elə zindanda da zalımlar tərəfindən şəhadətə yetirilib.

İmamın (ə) dəfn olunduğu məqbərə Bağdad[2] yaxınlığında Kazimeyn şəhərindədir.

1. Bəzi İmamların (ə) dövründə hökm sürən zalım hakimlər.
2. İraqın paytaxtı.

# 10
# Əvəzinə

Hava olduqca gözəl idi, günəş ətrafa nur saçırdı. Dəstə rəhbərimizin səsi ucaldı: "Gedirik!" Biz təpənin başında yerləşən düşərgəmizə doğru getməliydik. Üç günlük bir gəzintiyə çıxmışdıq. Bundan qabaq hələ belə bir səfərimiz olmamışdır.

***

Müəllimlərimizdən bu işdə təcrübəli olanlar bizi müşayiət edirdi. Biz möhkəm yorulmuşduq, amma biruzə verməməyə çalışırdıq. Bu üç gün ərzində çöllükdə ocaq qalamağı, yemək hazırlamağı, şəlalədə soyuq su ilə yuyunmağı öyrəndik. Kəndirlə böyük qayalara dırmandıq və iyirmi kilometrdən çox olan bir yolu piyada qət etdik. Biz öz qorxumuza qələbə çaldıq və şücaətlə bütün təhlükələrdən keçdik!

***

Bu səyahətdə rəhbərimiz olan müəllimlər də etiraf etdilər ki, biz burada özümüzü əsl qəhrəmanlar kimi apardıq! Bizim hələ belə həyacanlı səyahətimiz olmamışdı! Daha maraqlısı odur ki, açıq səma altında namazlarımızı qılmaqla yanaşı, bir çox yeni şeyləri də öyrənmək fürsətimiz oldu.





Dəstə rəhbərimiz dedi ki, namaz qılmağa çox vaxt qalmayıb. Biz elə bir yerdə idik ki, su tapa bilmirdik. Buna görə dəstəmazın əvəzinə təyəmmüm etməli idik. Bunu etdikdən sonra namazlarımızı qıla bilərdik. Amma təyəmmüm almaq üçün pak torpaq tapmalı idik. Çox maraqlı bir təcrübə əldə etdik!



## İstəyirsən, sənə deyim?

- Necə olur ki, səfərə çıxanlar hətta belə bir çətin şəraitdə Allaha ibadət etməyi unutmurlar?
- Su olmayan haldan başqa hansı səbəblərə görə təyəmmüm etmək olar?



## Mən bacararam

- Mən lazım olduqda dəstəmaz əvəzinə təyəmmüm edə bilərəm. Təyəmmüm etmək üçün ... lazımdır.





# 11

## □□□□□□□□□

Yavaş-yavaş və səssiz gövdəmin üzərilə yuxarı qalxırdı. Yumurtadan təzə çıxan quş balalarının səsi onun iştahasını daha da artırırdı.
O qədər həyacanlandım ki, sanki bütün köklərim qurudu və daha heç vaxt yaşıl yarpaqlarımın olmayacağını zənn etdim!
Ey Allahım, kaş bu quş balalarının anası tez gələydi!
Budaqlarımı tərpətdim ki, bəlkə bu ilan yerə düşə, amma bu hal quş balaları üçün daha təhlükəli idi.
Bərk narahat idim. Ey Rəbbim, axı nə etmək olar?!

***

Nəhayət quş balalarının anası gəlib çıxdı. Yorğun və halsız idi. Dimdiyində bir az yemək gətirmişdir. Hələ yuvasına yaxınlaşmadan təhlükəni hiss etdi. Dimdiyindəki yeməyi buraxıb balalarının imdadına çatmağa tələsdi. Quş balaları da təhlükəni hiss etdilər, amma belə xətəri zərərsizləşdirmək üçün hələ çox körpə idilər!
Ana quş məndən bir az aralandı, caynaqlarını çıxardıb ilana hücum etdi. Amma ilan heç qorxmadan yuxarı sarı sürünürdü. Ana quş bir də həmlə etdi. İlan bir anlıq dayanaraq yenidən hərəkətini davam etdirdi.
Yenə... Yenə...

***

Ana quş yuvadan aralıda dayanıb. Hələ də balaları təhlükədə idi. Daha ana quşun əlindən heç nə gəlmirdi. Elə çox fürsəti də yox idi. Bu mənzərəni izləməyə taqətim qalmadı.

***

Gözlənilmədən budaqlarım azacıq titrədi. Əsən meh yarpaqlarımı tərpədərək astadan dedi: "Bağın sahibi... o böyük insan... həmin o mehriban adam... oradadır!"
Ana quş bu sözləri eşidcək balalarını buraxıb sürətlə uçaraq uzaqlaşdı. Bağ sahibindən kömək istəməyə getdi.
Orada bir mən qaldım, bir çarəsiz quş balaları, bir də quşların yuvasına yavaş-yavaş yaxınlaşan ac ilan.
Ey Rəbbim, onlara kömək ol!





***

Çox keçmədən...
Bağ sahibi fəryadımıza çatmaq üçün bir nəfəri göndərdi.
O, ilana hücum edib quş balalarını xilas etdi.
Quşlar sakitləşdilər.
Yarpaqlarım, sanki yenidən canlandı!
Bağ sahibinin göstərişi ilə quşların köməyinə gələn adam gülərüzlə və razı halda alnının tərini sildi. Əlindəki ağac parçasını kənara qoyub mənim gövdəmə söykəndi və dodağının altında nəsə dedi.
Sərin meh yenə budaqlarımı tərpədib dedi: “Aman Allah! Sərvərimiz İmam Rza (ə) lap vaxtında bu adamdan quşlara kömək etməsini xahiş etdi!”
Quşlar mehlə birlikdə yarpaqlarım arasında qanadlarını çırpmağa başladı və sevinc içində dedilər: “Bu bağın sahibi mehriban İmamımızdır. O...”

***

Artıq uzun illərdir mən buradayam. Həmin quş balaları böyüdü və uçub getdilər. Hətta onların da öz balaları oldu...
İndi də bir çox quşlar mənim budaqlarımda özünə yuva qurur. Amma o vaxtdan bəri daha buralara ilan gəlmir.



## İstəyirsən, sənə deyim?

- Mətnə münasib ad qoyun.

## Mən bacararam

- Mən bu əhvalatı (ağacın deyil) başqasının dilindən də yaza bilərəm və öz əhvalatımı belə başlayaram:...



## Oxu üçün

Həzrət İmam Rza (ə) Mədinə şəhərində dünyaya gəlib. Ömrünün çox hissəsini həmin şəhərdə yaşayıb.

Abbasi hakimiyyətinin xəlifəsi Məmun həzrət İmam Rzanı (ə) camaatdan uzaq saxlamaq qərarına gəlir. Buna görə ondan Mədinədən Xorasan vilayətinə gəlməyi tələb edir. Həmçinin İmam Rzadan (ə) tələb edir ki, onun hökumətinin qanuni olmasını qəbul etsin. Amma onun bu hiylələrindən xəbərdar olan İmam Rza (ə) zalımın təklifini rədd edir. Uzun çəkişmədən sonra Məmun İmam Rzanı (ə) məcbur edir ki, onun canişini olsun.

İmam Rza (ə) Məmunun zülmlə dolu hökumət işlərinə qarışmadı. Yalnız xalqın hidayət olunması yolunda səy göstərdi. Həzrət o qədər insanların məhəbbətini və etibarını qazandı ki, Məmun bundan qorxuya düşüb İmamı (ə) şəhadətə yetirdi.

Camaat böyük ehtiramla İmam Rzanı (ə) Xorasanda torpağa tapşırdı. O vaxtdan etibarən İmam Rzanın (ə) Məşhəd şəhərində olan müqəddəs məqbərəsi bütün dünya müsəlmanlarının ziyarətgahıdır.



# 12
# İnşa

## Allahın adı ilə

Həmin gün məktəbimizdə ayrı bir ab-hava var idi. Uşaqlar ancaq gedəcəyimiz səfər barədə danışırdı. Onlar evlərində də ancaq səfərə hazırlıq görürdülər. Biz Məşhədə getməyə hazırlaşırdıq!

***

Nəhayət, gözlədiyimiz an gəlib çatdı.

Uşaqlar, müəllimlər, valideynlər – hər kəs – dəmir yol stansiyasına toplaşdı.

Hərə bir söz danışırdı:

- Özünüzdən muğayat olun ki, soyuqlamayasız...
- Bizi yaddan çıxartma!.. Bizə də dua edin!..
- Qayıdanda hədiyyə almağı unutmayın!..
- İmam Rzanın (ə) zərihini[1] görən kimi...

Anamın da gözləri dolub: “İmam Rzanın (ə) hərəmində Allaha dua edin ki, bizə də İmamın ziyarətini nəsib etsin!”

***

Təyin olunmuş vaxtda qatara əyləşdik.

Bir neçə dəqiqəyə əl çantalarımızı yerbəyer etdik və öz yerlərimizə əyləşdik.

Çox keçmədi ki, qatar fit verib yerindən tərpəndi və yavaş-yavaş sürəti artmağa başladı...

***

Artıq xeyli vaxt idi ki, yol gedirdik, amma çox az yatırdıq. Nədənsə gözümüzə yuxu getmirdi! Danışıb gülürdük, oynayırdıq və intizar çəkirdik...

Mənzil başına çatmağın intizarını!..

Görmək arzusunda olduğumuz yerə çatmağın intizarını!

Sübh açılar-açılmaz bizim kupeni səs-küy bürüdü.

Yenicə yuxuya getmişdim ki, bu səs-küydən diksindim.

1. Zərih - Müqəddəs ziyarətgahlarda məzarların üzərində qurulmuş metal və ya taxta məhəccərə "zərih" deyilir.



Dostlarım tərləmiş pəncərə şüşələrinin arxasından çölə baxmağa səy edirdilər.
Mən də pəncərəyə yaxınlaşdım.
Hava hələ tam işıqlanmamışdı. Amma İmam Rzanın (ə) hərəminin qızılı günbəzi aləmə nur saçırdı!
Aman Allahım!.. İntizarımız sona çatmaq üzrə idi!

***

Hərəmə yaxınlaşanda müəllimlərimiz ehtiram əlaməti olaraq İmam Rzaya (ə) xüsusi tərzdə salam verdilər:
"Əssəlamu-aleykə, ya Əli ibn Musa ər-Rza!"
Biz də astadan salavat deyib dodaqaltı dua etməyə başladıq.
Necə də gözəl anlar idi!..
Günəşin şəfəqləri qızılı günbəzə və minarələrə xüsusi gözəllik verirdi!

***

Məhəmməd dəftərini əlinə aldı, dostlarına baxıb dedi:
"Uşaqlar!.. Həqiqətən, bu sevimli anların bir də təkrarlanmayacağını düşünmək mənə çox çətin gəlir!



Yadınızdadır?.. Qatarda necə gülürdük, zarafatlaşırdıq, oynayırdıq... Elə ki çatdıq... İmam Rza (ə) hərəminin nurlu künbəzini gördük... Göyərçinləri əlimizlə bir-birimizə göstərdik ... Dəstə ilə ziyarətə gedirdik... hərəmdə dualar edirdik... Necə də gözəl idi!

O gün sübh tezdən yadınıza gəlir?.. Su bulağının yanında hamımız birlikdə dəstəmaz alırdıq, düz "İnqilab" meydanında olan hovuz başında!..

Şeypurların, təbillərin səsi hələ də qulağımdadır... Həmin gün hava necə də gözəl idi! O səhəri heç vaxt unutmayacağam!

Bir düşünün... Həmin xoş anlar bir daha geri dönməyəcək!"

## Mən bacararam

- Mən də özümün bir ziyarət səfəri barədəki xatirələrimi yazıb dostlarıma oxuya bilərəm.

## İstəyirsən, sənə deyim?

- Hər dəfə İmam Rzanın (ə) ziyarətinə gedəndə orada Allahdan istəyirəm ki,..

## Oxu üçün

Böyük adamların, məsələn İmam Rza (ə) kimi böyük şəxsiyyətin vəfatından sonra ziyarətinə getmək həqiqətdə onunla sağlığında görüşmək kimidir.

Ziyarət, yəni böyük bir şəxsiyyətin, məsələn İmamlardan (ə) birinin görüşünə getmək deməkdir.

Dinin sair əməlləri kimi ziyarətin də özünəməxsus ədəb-ərkanı vardır. Məsələn, ziyarətə getdiyimizdə gərək təmiz geyinək və xoş ətir saçaq. Ziyarət edəcəyimiz hərəmə hörmət və ehtiramla daxil olmaq, sakitliyə riayət etmək lazımdır və s.

# 13
# Cəsarətli uşaq

Bir gün Abbasi xəlifəsi[1] Məmun öz tərəfdarları və xidmətçiləri ilə ova çıxır.
Camaat onların qəzəbinə tuş gəlməmək qorxusundan keçəcəkləri yoldan uzaqlaşırdı.
Xəlifə və adamları yolda elə bir yerə gəlib yetişirlər ki, orada bir neçə uşaq oyun oynayırdı. Bütün uşaqlar xəlifəni atlıları ilə görcək qorxudan qaçıb dağılışırlar. Yalnız bir uşaq elə olduğu yerdə də dayanır.
Xəlifə Məmun bu mənzərəni görəndə çox təəccüblənir və atından düşüb həmin uşağa yaxınlaşır. Onun qarşısında durub deyir: "Niyə başqa uşaqlar kimi sən də mənim yolumdan qaçıb uzaqlaşmadın?"
Uşaq deyir: "Yol dar olmadığı üçün kənara çəkilmədim. Heç bir xəta etmədiyimə görə də qaçmadım. Mən sizin günahsız bir adamı cəzalandıracağınızı düşünmürəm".
Məmun uşağın belə cavabından çox heyrətlənir: - Sənin adın nədir?
- Muhəmməd.
- Kimin oğlusan?
- Əli ibn Musa Rzanın.
Məmun başını yelləyib deyir: "Bəli! Yalnız onun belə övladı ola bilər!"

## İstəyirsən, sənə deyim?

- Nəyə görə İmam Muhəmməd Təqi (ə) Məmunla belə rəftar etdi?
- Hansı əməllər şücaətin göstəricisidir?

## Mən bacararam

- Mən də İmam Muhəmməd Təqi (ə) kimi davranmağa səy göstərəcəm. Bundan ötəri, gərək...

## Oxu üçün

İmam Rzanın (ə) oğlu həzrət İmam Muhəmməd Təqi (ə) Mədinə şəhərində dünyaya gəlib. O hələ uşaq ikən müsəlmanların imamı məqamına yetişmişdir. Həmin çağlarda böyük alimlər həzrətin yanına gələrək dini və elmi məsələləri ondan öyrənirdilər. İmam (ə) da öz növbəsində bütün suallara cavab verirdi. Camaat həzrət Muhəmməd Təqinin (ə) elmi qarşısında heyrətə gəlirdi. Onlar İmam Muhəmməd Təqini (ə) çox sevirdi və dini hökmləri ondan öyrənirdi. İnsanlara yardım etdiyi və həddən artıq səxavətli olduğu üçün onu "İmam Cavad" adlandırırdılar.
Abbasilərin zalım xəlifəsi İmamın (ə) camaatı zülmə qarşı qaldırmasından qorxub onu Mədinədən Bağdad şəhərinə göndərir. Bir müddət sonra isə iyirmi beş yaşlı İmamı (ə) şəhadətə çatdırır. İmamın (ə) müqəddəs məzarı Kazimeyn şəhərində babası İmam Kazimin (ə) yanındadır. Hazırda ora bütün dünya müsəlmanlarının ziyarətgahıdır.

1. Xəlifə - canişin, bir kəsdən sonra onun yerini tutan şəxs deməkdir.



# 14
# Əzəmətli sübh

Bəzən Məkkədən çıxıb "Hira" mağarasına gedirdi.
Orada aramlıq tapır, düşünür və ibadətlə məşğul olurdu.
Gecələr mağaranın kənarında yerləşən böyük bir qayanın üzərinə çıxıb gözlərini Məkkənin ulduzlarla dolu olan səmasına zilləyirdi.
O, yaradılış aləminin əzəmət və möhtəşəmliyini seyr edib tək olan Allahla razi-niyaz[1] edirdi.
Həzrət Əli (ə) buyurur: "Mən onu elə bir halda gördüm ki, başqaları görməmişdi!"

●

Gözəl bir sübh çağı idi.
Həmin mağarada ibadətlə məşğul idi ki,..
Birdən həzrət Cəbrail[2] onun hüzurunda peyda olub könül oxşayan bir səslə belə buyurdu:
"Ey Muhəmməd!..
Oxu!..
Səni yaradan Allahın adıyla oxu!.."
Bu, Quranın ilk ayələrinin nazil olduğu həmin anlar idi!

●

Allahın ona əmr etdiyi sözləri eşidən kimi başa düşdü ki, bundan belə gərək camaatı azğınlıqdan xilas etsin və onları Allaha pərəstiş etməyə dəvət etsin.
Beləliklə, tam inam və imanla dağdan aşağı enib evinə sarı üz tutdu.
Onun mehriban xanımı möhtərəm Xədicə həyat yoldaşının nurani çöhrəsini görəndə hansısa böyük bir hadisənin baş verdiyini anladı.
Bütün olub-keçənləri Xədicəyə danışandan sonra belə buyurdu: "Allah mənim üzərimə böyük bir vəzifə qoydu!"

1. Razi-niyaz etmək - Allaha gizlində yalvarmaq, mərhəmət istəmək.
2. Cəbrail - Allahın mesajlarını peyğəmbərlərə çatdıran mələk.



Möhtərəm Xədicə dedi: “Mən bilirdim ki, sən peyğəmbər olacaqsan. Bu əzəmətli anın intizarı ilə yaşayırdım, indi isə sənə iman gətirirəm!”
Beləliklə, möhtərəm Xədicə müsəlman oldu.

●

Həzrət Əli (ə) buyurur:
“Mən həmişə onunla birlikdə idim. Ona iman gətirdim və bundan sonra ondan ayrılmadım. Anasının addımları ilə addımlayan uşaq kimi həmişə onu təqib etdim. Həmin vaxtlar hələ İslam dini heç bir evə qədəm basmamışdır, yalnız Allahın Rəsulu ilə həzrət Xədicənin yaşadığı evdən başqa. Mən də onlardan üçüncüsü idim.
Mən vəhyin aydınlığını gördüm və peyğəmbərliyin ətrini duydum”.

●

Bizim əzəmətli Peyğəmbərimiz həzrət Muhəmməd (s) rəcəb ayının iyirmi yeddisində Allah tərəfindən peyğəmbər seçilib.
Həmin gün "Məbəs[3] günü" adlandırılır.
Biz müsəlmanlar Məbəs günü bayram edib şadlanırıq.
Məbəs bayramı İslam dininin böyük bayramlarından biridir.

## İstəyirsən, sənə deyim?

● Digər müsəlmanların sevincinə şərik ola bilmək üçün İslam Peyğəmbərinin (s) Məbəs günü münasibətilə biz də öz növbəmizdə kiçik bir bayram şənliyi təşkil edə bilərikmi?

## Mən bacararam

● Mən İslam Peyğəmbərinin (s) Məbəs bayramında təbrik açıqcası hazırlayıb dostlarıma hədiyyə edə bilərəm.

3. Məbəs - "seçilmiş" deməkdir.

Oxu üçün

## ALLAHIN MÜJDƏSİ!

Elə ki kahadan çıxanda çölə,
Allahın müjdəli qasidi oldun.
Gül ətri saçırdın sən ərtafına,
Allahın ən yaxşı bəndəsi idin!

Gəldin sehr kimi, parlaq bir nur tək,
Açmış çiçək kimi, saf bir bulaq tək.
Qaynayan, çağlayan çeşmələr kimi
Suvarıb becərdin minlərlə gülü!

Elə ki Hiranın önünə çıxdın,
Səmanı bəzəyən ulduzlar gördün.
Parça buludların aralarından
Yağıştək yağırdı parlaq ulduzlar!

Yay gününün parlaq günəşi kimi
Sənin gözlərindən nurlar saçılır!
Ayı, ulduzları, bütün dünyanı
Nurlara qərq edən qapı açılır!



# 15
# Ah bu dostluq!

**1. Qumdan ev**

- Məgər siz dost deyilsiz?

Bəs niyə sahildə oynayanda o qumdan evi uçurtdunuz?

Sözügedən evi Məcidlə Rza düzəltmişdi. Onlar bütün gün sevinclə, diqqətlə onun inşası ilə məşğul idilər. Bu evi sizə göstərib sevindirmək istəyirdilər.

Ancaq indi...

Baxın ikisi də qəmgin halda uçmuş evin qarşısında dayanıblar. Düşünürsüz ki, belə hərəkətlərdən sonra dostluğunuz davam edəcək?

**2. Mən sizin dostunuzam**

- Leyla, bu zirənglik deyil... Gəl sən də bizim kimi növbədə dayan!

Leyla, sanki heç nə eşitməmiş kimi növbəsiz sürüşkəndən sürüşmək istəyir.

Məsumə onun arxasından səslənir: "Leyla, sən gərək burada mənim arxamda cərgədə durasan!"

Leyla gülüb deyir: "Mən sizin dostunuzam".

Uşaqlar ona səslənir: "Növbəyə durmadan sürüşkəndə oynayan bizim dostumuz deyil!"



### 3. Gərək evə gedəm!

Uşaqlar həyətdə "Səndə-məndə" oyunu oynayır.
Nadir də oyunçulardandır.
O, uşaqları birinci qovmalıdır, amma bunu heç sevmir.
Elə buna görə deyir: "Mən yorulmuşam... daha oynamaq istəmirəm... evə gedirəm".
Evə getmək adı ilə uşaqlardan ayrılır, ancaq yolunu dəyişib yellənçəyə minir.
Dostları sadəcə dayanıb onun bu hərəkətinə tamaşa edirlər.

### 4. Dostluğun əvəzinə...

- Əhməd, velosipedimin təkəri boşalıb, mənə kömək edərsən? Ağırdır, tək apara bilmirəm.
- Xeyr, mən sənə kömək etməyəcəm.
- Niyə? Mən sənə neyləmişəm?
- Yadındadır, keçən dəfə topunu istədim, sən isə vermədin.

## İstəyirsən, sənə deyim?



- Bu uşaqların hər biri barədə, o cümlədən bir-birinə qarşı olan rəftarları və dostluğu barədə mənim fikrimi bilmək istəyirsənmi? Məncə,..



## Mən bacararam

- Mən bu hekayələrin hər birini öz istədiyim kimi dəyişə bilərəm. Yaxud da yeni hekayələr yaza bilərəm.



# 16
# Dostun xatirinə

Karvandan geri qalıb, çünki dəvəsi daha yeriyə bilmirdi.

Yüklərini arxasına şəlləyib yoluna piyada davam edir.

Günəş dözülməz dərəcədə yandırır. Olduqca susuz və yorğundur. Başından axan tər damcıları üzünə süzülür.

Çətinliklə nəfəs alır, amma var gücü ilə iradəsini toplayıb səhranı arxada qoyur.

Artıq özünü unutmuşdur, yeganə istəyi Allah Rəsuluna (s) və İslam döyüşçülərinə çatmaqdır; o döyüşçülərə ki, İslam düşmənləri ilə mübarizə aparmaq üçün bu ətraflarda dolaşırlar.

***

Bir az uzaqda bulud görünür.

- Ey Rəbbim, Sənə şükürlər olsun! Bu quru səhrada bulud!..

İstiqamətini bulud olan tərəfə dəyişir. Nəhayət, yağış suyundan əmələ gələn kiçik bir gölməçənin olduğu yerə gəlib yetişir. Saf və sərin su!

Ovcunu doldurub suyu qurumuş dodaqlarına yaxınlaşdırır. Amma birdən yadına nəsə düşür. Yanında olan su qabını doldurub yenidən yola düzəlir.

***

Xeyli vaxtdır piyada yol gedir. Əvvəlkindən də yorğun və susuzdur. Qəflətən gözü uzaqda olan İslam ordusuna sataşır. Sevinc göz yaşları yanaqlarına axır. Daha yeyin addımlamağa başlayır.

***

Döyüşçülər uzaqdan qaraltı görürlər.

- Ey Allahın Rəsulu, kimsə bizə tərəf gəlir.

- Kaş Allah eliyə, bu Abuzər ola!

Qaraltı getdikcə yaxınlaşır.

Döyüşçülərdən biri qışqırır:

- Bu Abuzərdir!.. Abuzər gəlir...

Allah Rəsulu (s) təbəssüm edir.

***

Həzrət Muhəmməd Peyğəmbər (s) onu qarşılamaq üçün qabağına gedir.

Yükünü onun çiynindən götürür.

Abuzər yorğunluqdan və susuzluqdan yerə yıxılır.

- Qardaşlar, su gətirin, Abuzər susuzdur!

Qurumuş dodaqlarını güclə açıb deyir: "Lazım deyil... yanımda su var".

- Yanında suyun ola-ola içməmisən?!

- Bəli, o su qabı doludur.

- Bəs niyə içməmisən?

- Öz-özümə dedim ki, bəlkə Allah Rəsulu (s) da susuzdur, gərək səbir edim, qoy əvvəl bu sudan o içsin...

Sözlərini bitirər-bitirməz özündən gedir.

Döyüşçülər heyranlıqla Abuzərə baxır.

Peyğəmbərin (s) dodaqlarında mənalı bir təbəssüm var.

## İstəyirsən, sənə deyim?

- Abuzərin davranışları nəyin əlaməti idi?
- İstəyirsən, bu iki dostun - Peyğəmbər (s) və Abuzərin - rəftarından hansı dərsi aldığımızı sənə deyim?

## Mən bacararam

- Mən dostluq mövzusunda qısa bir inşa yaza, yaxud da qəşəng bir şəkil çəkə bilərəm. Ya da.............. bilərəm.





## 17

# Mənim xəyallarım

Mən həmişə həyatın gözəllikləri barədə düşünürəm:
Gülüş və şadlıq,
məhəbbət və mehribanlıq,
dostluq və səmimiyyət,
qardaşlıq və bərabərlik
və.................barədə.

Mən xəyallarımda dünyanı gözəl görürəm:
Elə bir dünya ki.......
təbəssüm və sevinclə,
sülh və əmin-amanlıqla,
eşq və dostluqla,
doğruluq və düzgünlüklə,
mehr və məhəbbətlə doludur!

Elə bir dünya ki orada zülm və pislik,
xəyanət və xətalar olmasın!
Elə bir dünya ki......
Və arzu edirəm ki, həmişə mehriban olaq və
hamı mehriban olsun,
hamı bir-biri ilə dost olsun
və.......!

Və arzu edirəm ki,
gözlənilən Mehdi[1] (ə.c)[2] gəlsin!
Öz gəlişi ilə bizim həyatımıza sevinc və şadlıq hədiyyə etsin!
Bizə eşq və dostluq,
iman və ümid,
doğruluq və düzgünlük,
əmin-amanlıq və sülh gətirsin!



1. Mehdi – Allah-taalanın və İslam Peyğəmbərinin (s) müjdəsini verdiyi xilaskar İmam Zaman.
2. “عجل الله تعالى فرجه” - “Allah onun qələbəsini tezləşdirsin” duasının qısa yazılışıdır. Biz bu dua ilə İmam Zamanın tez gəlməsini Allahdan diləyirik.

Birlik və qardaşlıq,

məhəbbət və mehribanlıq,

ədalət və bərabərlik gətirsin!

### İstəyirsən, sənə deyim?

- Mənim və bütün uşaqların dünyanın daha gözəl olması arzusu nə zaman gerçəkləşəcək?
- Təkcə arzu etmək kifayətdir, yoxsa gərək.....?

### Mən bacararam

- Mən həyatı daha da gözəlləşdirə bilərəm. Öz danışığımla, rəftarımla...



# 18
# Ananın əlləri

Necə də təmtəraqlı bayramdır!
Bu axşam hamı şad-xürrəmdir.
Necə hörmətli qonaqlar var,
Hamısı adlı-sanlı, tanınmış adamlardır.
Bəylə gəlin necə də gözəldir,
Hər ikisi dünyanın ən ləyaqətli insanıdır!

●

Qonaqların arasında hündürboylu, amma qəddi əyilmiş, ağsaçlı qadın var.
Bir baxın, bəy necə onun əlindən tutub ehtiramla yuxarı başa aparır!
Görəsən, o kimdir ki, bəy ona belə ehtiram göstərir?
Qəribədir!.. Hətta bəylik xələtini çiynindən götürüb onun ayaqları altına atır!
Yəqin ki, çox hörmətəlayiq bir qadındır.
Gəlin də ona: "Xoş gəlmisiz" - deyir və ədəblə qarşısında əyləşir.

●

Muhəmməd Əmin[1] ehtiramla Həliməyə baxır.
Həlimənin ana kimi onun qayğısını çəkdiyi körpə uşaq olduğu zamanları xatırlayır.
O, mehriban baxışlarla öz dayəsi Həliməyə baxıb anası Aminəni yada salır.

---

1. Həzrət Muhəmməd peyğəmbər (s) cavan yaşlarında əmanətdar və düzdanışan insan olduğu üçün onu "Muhəmməd Əmin" adlandırırdılar.





Həmin an bunları xatırlayır:
Anası Aminə onun üzündən öpür;
Gözünün yaşını silib onun əlindən tutur və dərindən bir ah çəkir.
O an Muhəmməd düşünür ki, anası dərin yuxuya gedib.
Əlləri hələ də anasının əllərindədir. Əyilib anasının üzündən öpür və sakitcə onun yanında əyləşir.
Muhəmməd uzun müddət anasının əllərini buraxmır. Bəlkə bu hərəkəti anasını yatdığı yuxudan oyada...

İndi Muhəmməd Əmin mehriban anası Aminəni xatırlayaraq təbəssümlə öz yaşlaşmış dayəsinə baxır.
Həlimə də nur saçan qaragözlü gənc Muhəmmədə nəzərlərini zilləyib. Muhəmmədin körpəlik və südəmər vaxtlarını yadına salır. Həmin o zamanları ki, onun anası Aminə gözüyaşlı halda bu bərəkətli uşağı ona etibar etmişdir. Həmin o çağları ki, Aminənin bu südəmər körpəsi onun qucağında sakitləşmişdir. Aminənin gözlərini yadına salır. Öz oğul övladından ayrıldığına görə için-için ağlayırdı.
Bu bərəkətli körpə indi boylu-buxunlu, gözəl bir cavan olub və qonaqların qarşısında ona belə ehtiram göstərir.

Elə bu an şairlərdən biri qabağa keçib şer söyləyir:

Ey Xədicə, aydın olsun gözlərin,
Xoşbəxt olub belə səadətə çatdın!
Ən gözəl insanla ailə qurursan,
Hicranı qovaraq vüsala çatdın!

Hamı ürəkdən bu iki nəfərin səadəti üçün dua edir.



## İstəyirsən, sənə deyim?

- Həzrət Muhəmmədin (s) öz qohumları və yaxınları ilə olan münasibətini necə təsvir edə bilərəm?
- Əgər Allah Rəsulunun (s) yolunu davam etdirmək istəsəm, öz qohumlarımla necə rəftar etməliyəm?



## Mən bacararam

- Allah Rəsulunun (s) öz qohumları və yaxınları ilə davranışı barədə başqa bir gözəl əhvalatı oxuya və ondan dərs ala bilərəm.

# 19
# Fədakar həyat yoldaşı

Öz fədakar həyat yoldaşının məzarı başında dayanıb üfüqə baxır.

Bir anlıq onun pıçıltı ilə etdiyi son duaları zehninə gəlir;

Məsum qızının üzünə gülür. Saf və təmiz gözlərinə nəzərlərini dikir. Sonda canını Yaradana tapşırır.

O çağları yadına salır ki, vəfalı həyat yoldaşı körpə Fatiməni qucağına alıb öz gözəl evindən quru və isti bir dərəyə üz tutmuşdu, çünki onu qorumalıydı.

●

Bu il Allah Rəsulu (s) üçün hüzn ilidir.

Bir müddət sevincli günlərdən sonra iki qəmli hadisə baş verdi:

Mehriban əmisi Əbu Talib dünyadan köçdü, ondan sonra sevimli həyat yoldaşı möhtərəm Xədicə vəfat etdi. Vəfalı həyat yoldaşı!

●

Bir neçə il bundan əvvəl həzrət Əbu Talib onun və dostlarının canını qorumaq məqsədilə onları Məkkə şəhərindən kənarda yerləşən "Şibi Əbu Talib" adlanan dərəyə köçürtdü.



Müsəlmanların həyatı həmin dərədə çox ağır keçdi. Onlar üç ildən artıq qayalar arasında yaşamağa məcbur oldular.

Gecələr vahiməli zülmət, gündüzlər isə qızmar günəş, bəzən də yağışlar və sel.

Bütün bu zaman ərzində müsəlmanlar kafirlərin mühasirəsində idilər, yalnız həcc[1] zamanı dərədən kənara çıxır və özlərinə azuqə yığırdılar.

Olduqca səxavətli olan xanım Xədicə həmin zaman öz sərvətinin böyük bir hissəsini müsəlmanların azuqə və həyat üçün zəruri olan digər əşyalarına sərf etdi.

O hətta öz dostlarını və qohumlarını da bu işə cəlb etdi.

Bəzən onun qardaşı oğlu buğda ilə yüklü dəvələri bibisinə - möhtərəm Xədicəyə və digər müsəlmanlara çatdırırdı.

Xanım Xədicə də öz əli ilə buğdanı üyüdüb un edir, Allah Rəsuluna (s) və onun silahdaşlarına çörək bişirərdi.

•

Bütün bu əziyyət və zəhmətlər möhtərəm Xədicənin imanına xələl gətirmədi. O, sona qədər Peyğəmbərin (s) yanında qaldı, ondan muğayat oldu, ona kömək etdi. Allah Rəsulunu (s) himayə etdiyinə görə sevinirdi. Həm də onların Fatimə (ə) kimi bir övladı var idi.

1. Həcc - Allah evinin ziyarəti.

İndi isə İslamın fədakar xanımı dünyadan köçmüşdür. Allah Rəsulu (s) onu babasının və əmisinin qəbirləri yanında torpağa tapşırmışdır.

Həzrət Muhəmməd (s) pıçıltı ilə dodaqaltı buyurur: “Allaha and olsun ki, mehriban olan Allah mənə Xədicədən daha yaxşısını qismət etməyib! Hamı məndən üz çevirəndə o mənə iman gətirdi.

Camaat məni öz malından məhrum edəndə o öz malı ilə mənə köməyə tələsdi. Allah bizə Fatimə kimi bir ləyaqətli övlad nəsib etdi”.

## İstəyirsən, sənə deyim?

- Həzrət Xədicənin fədakarlığını necə təsvir etmək olar?

## Mən bacararam

- Mən İslamın əzəmətli xanımı möhtərəm Xədicə barədə daha artıq məlumat əldə edib sinifdə danışa bilərəm.

# 20

# Məni görən var!

- Burada heç kim yoxdur, tullantıları elə bura tökə bilərəm.

- Burada heç kim yoxdur, divarı yaza bilərəm.

- Burada heç kim yoxdur, icazəsiz meyvəni dərib yeyə bilərəm.

•

•

•

- Çox ehtimal ki, mənə irad tutan olmasın, çünki məni görən yoxdur!

Amma niyə... Mənə elə gəlir, kimsə var...

Özüm...

Özüm ki buradayam!

Mən özüm görürəm.

Ah... başqası da var!

Bəli...O!

O məni görür.

Mən bunu gözəl hiss edirəm.



## İstəyirsən, sənə deyim?

- Yaxşı bir iş etdiyimi kimsə görəndə hansı hissləri keçirirəm?
- Allahın məni daima gördüyünü və nəzarət etdiyini biləndə hansı hissləri keçirirəm?



## Mən bacararam

- Mən elə işlər görə bilərəm ki, O həmişə məndən razı qalsın. Məsələn...

# 21
# Yadigar şəkil

Məhləmizin bağçasında oynayırdıq.

Rza əmi bənövşə güllərini əkməklə məşğul idi.

O, əlindəki mala ilə bağçanın nəm torpağında balaca çalalar düzəldir, sonra isə dibçəkdəki bənövşə güllərini ehtiyatla çıxarıb həmin çalalara əkirdi.

Oyundan ayrılıb ona yaxınlaşdım, yaşlı bağbana salam verib dedim: "Əmican, istəyirsiz, biz də bu işdə sizə kömək edək?"

O çox sevindi!

Əvvəl gülləri əkməyin qaydasını ondan öyrəndik, sonra hərəmiz bağçanın bir tərəfində gül əkməyə başladıq.

Çox keçmədi ki, bağçanın böyük bir hissəsi güllüyə çevrildi!

●

- Uşaqlar, bura gəlin!.. Gəlin, görün burada nə maraqlı bir şey var!

Bu dostumuz Mehdi idi, evlərinin pəncərəsindən bizi səsləyirdi. Onların evi bağçaya yaxın idi.

Hamımız Mehdigilə getdik. Onun əlində balaca bir fotokamera var idi. Mehdi atasının yardımı ilə Rza əmiyə kömək etdiyimiz anları fotokameraya çəkmişdir.

●

Şəkillərə baxdıq...

Necə də maraqlı idi!..



### İstəyirsən, sənə deyim?

- Nəyə görə o şəkilləri görmək uşaqlara maraqlı gəldi?
- Doğrudan da, iş başında olduğum şəkillərə baxdıqda nə zaman sevincək, nə zaman qəmqin oluram?

### Mən bacararam

- Elə işlər haqqında düşünə bilərəm ki, Allah məndən razı qalsın, mənə axirətdə baş ucalığı gətirsin. Məsələn...

### Oxu üçün

Allahın mələkləri bizim əməllərimizi qeydə alır. Həyatımızın bütün gözəl və pis anları yazılır. Biz axirət aləmində onları görəcəyik. Yaxşı əməllərimizə görə sevinəcək, pis əməllərimizə görə isə...
Yaxşı əməllərimiz və düşüncələrimiz anında və tez qeydə alınır. Amma pis əməllərimiz bir az gec. Bu ona görədir ki, ola bilsin peşman olaq və Allahdan bağışlanmaq diləyək.
Qurani-Kərimdə buyrulur:

فَمَن يعمَل مِثقالَ ذَرَّةٍ خَيراً يرَهُ و

وَ مَن يعمَل مِثقالَ ذَرَّةٍ شَرّاً يرَهُ و

(Zəlzələ surəsi, 7-8-ci ayələr)

Bu ayələrin tərcüməsinə öz ana dilinizdə olan Quran kitabında baxa bilərsiz.



## 22
# Mənim böyük arzum

Günlər
şad və ümid dolu
gəlib keçir,
gözəl və unudulmaz xatirələrlə
sona çatır.
Dostluqla birgə,
məhəbbətlə birgə,
yaxşılıqlarla və..... birgə
Amma...
Bəzi vaxtlar
qürub əfsusla birgə gəlir
Başqalarına əziyyət verən işlərə görə,
mənasız işlərlə əldən verdiyimiz fürsətlərə görə.
Ona görə ki,...
bu zaman mən arzu edirəm
bu pis anlar keçsin və
bir daha gəlməsin!
Günbəgün həyatın yaxşılıqları, gözəllikləri çoxalsın!

Günlər
şad və ümid dolu
gəlib keçir,
gözəl və unudulmaz xatirələrlə
sona çatır.
Dostluqla birgə,
məhəbbətlə birgə,
yaxşılıqlarla və..... birgə
Amma...
Bəzi vaxtlar
qürub əfsusla birgə gəlir
Başqalarına əziyyət verən işlərə görə,
mənasız işlərlə əldən verdiyimiz fürsətlərə görə.
Ona görə ki,...
bu zaman mən arzu edirəm
bu pis anlar keçsin və
bir daha gəlməsin!
Günbəgün həyatın yaxşılıqları, gözəllikləri çoxalsın!
Mən
yaxşılardan olmaq istəyirəm,

## İstəyirsən, sənə deyim?

- Axirət dünyasında başıuca olmaq üçün hansı əməlləri görə bilərəm?
- Bu işdə Allahdan necə kömək istəyə bilərəm?

## Mən bacararam

- Mən də arzu edə bilərəm - həm özüm, həm də başqaları üçün!

Mən mehriban Allahdan istəyə bilərəm ki,..

## Oxu üçün

ربَّنا امَنّا، فَاغفِرلَنا وَ ارحَمنا وَ اَنتَ خَيرُ الرّاحِمين

Ey Rəbbimiz!

Biz (Sənə) iman gətirdik. Buna görə də bizi bağışla və bizə rəhm et.

Sən rəhm edənlərin ən yaxşısısan!

(Qurani-Kərim, Muminun surəsi, 109-cu ayə)

Mən namaz qılarkən və ya istənilən zaman Quranda olan bu duanı edə bilərəm.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
DK-430/B saylı, 21 iyul 2020-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

Çapa imzalanmışdır: 21.09.2020. Formati 60x84 1/8.
Sifariş No 48. Tiraj 500

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru